Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun EIF-Mob-5-2014-2(17)-14/14/5-M-01 qrant layihəsinin rəhbəri fəlsəfə üzrə elmlər doktoru Bünyadzadə Könül Yusif qızının

# H E S A B A T I

Ümumdünya Fenomenologiya İnstitutunun *(The World Phenomenology Institute)*, İtaliyanın Fenomenologiya və həyat elmləri beynəlxalq cəmiyyətinin *(International Society of Phenomenology and Sciences of Life)* bərabər təşkil etdiyi 64-cü Fenomenologiya Konqresinin *(64th Congress of Phenomenology)* bu il İtaliyanın Milan şəhərindəki "Sacred Heart" Katolik Universitetində keçirilməsi nəzərdə tutulmuşdu. Konqresin bu ilki mövzusu "Eko-Fenomenologiya: Həyat, İnsan Həyatı və İnsan Sonrası Həyat Kainatın Harmoniyasında" *("Eco-Phenomenology: Life, Human Life, Post-Human Life in the Harmony of the Cosmos")* idi.

Xüsusilə qeyd edim ki, Amerika Birləşmiş Ştatlarında yerləşən, təməli tanınmış filosof Anna-Tereza Timiniçka tərəfindən qoyulan Ümumdünya Fenomenologiya İnstitutu adətən öz tədbirlərini dünyanın tanınmış Universitetlərində təşkil edir. Məqsəd isə Konqres iştirakçıları və Universitetin fəlsəfə fakültəsinin tələbələri arasında qarşılıqlı əlaqə və əməkdaşlığın yaradılmasıdır. Belə ki, bununla, bir tərəfdən fenomenologiya sahəsində tələbələr arasında maarifləndirmə işi aparılır, digər tərəfdən, tələbələrin də aktiv iştirak etdiyi elmi diskussiyalarda Konqres iştirakçıları öz ideyalarını daha da mükəmməlləşdirmək imkanı qazanırlar. Qeyd etmək lazımdır ki, bu, öz müsbət nəticəsini verməkdədir və Konqresə qatılan iştirakçıların sayı və coğrafiyası ilbəil artır.

Konqres oktyabr ayının 1-3 tarixlərində nəzərdə tutulmuşdu, sentyabr ayının 30-u isə qeydiyyat günü idi. Bu səbəbdən mən sentyabr ayının 29-da Milana getdim. Növbəti gün qeydiyyatdan keçdim, Konqresin proqramını aldım.

Konqresin ilk gününün plenar iclası bu ilin iyun ayında dünyasını dəyişmiş, Ümumdünya Fenomenologiya İnstitutunun yaradıcısı professor Anna-Tereza Timiniçkanın xatirəsinə həsr olunmuşdu. Plenar iclasda çıxış edən Vatikanın Lateran Universitetinin professoru Françesko Alfieri Anna-Tereza Timiniçkanın Azərbaycana olan xüsusi sevgisini və görkəmli Azərbaycan filosofu Şihabəddin Sührəvərdiyə həsr olunmuş beynəlxalq konfranslarda iştirak etmək üçün iki dəfə Bakıya gəldiyini də vurğuladı. Plenar iclasda həmçinin azərbaycanlı filosof, professor Səlahəddin Xəlilov da çıxış etdi, Anna-Tereza haqqında xatirələrini bölüşdü.

Mənim məruzəm oktyabr ayının 2-də "Eco-kosmologiya" ("Eco-cosmology") bölməsində nəzərdə tutulmuşdu. "«Mən» – ilahi nurlanma və sosial reallığın kəsişmə nöqtəsində" adlı məruzəmi ingilis dilində təqdim etdim. Məruzəm "Mən" fenomeninin iki aspektdən – ilahi hikmətin təzahürü və xarici təsirlərin inikas məkanı kimi təhlilinə həsr olunmuşdu. Qeyd edim ki, mənim fenomenoloji araşdırmalarım Şərq fəlsəfəsi, xüsusilə təsəvvüf fəlsəfəsi ilə müqayisəli təhlilə əsaslandığına görə, dinləyicilər tərəfindən xüsusi maraqla qarşılandı, mənimlə razılaşan, təqdir edən, eyni zamanda qəti şəkildə inkar edən, razılaşmayanlar da oldu, çoxsaylı suallar verildi, onlara ətraflı cavablar verdim. Fransadan, Hindistandan, Malayziyadan, Latviyadan, ABŞ-dan və b. ölkələrdən olan iştirakçılarla maraqlı bir fəlsəfi diskussiya baş tutdu.

Konqresin növbəti günü – oktyabr ayının 3-də isə Konqresin "Can, bədən, təcəssüm – Zaman və Məkan" ("Flesh, Body, Embodiment/Space and Time") bölməsinə sədrlik etdim. İki hissədən ibarət, 9 məruzəçinin iştirak etdiyi və təqribən 5 saat davam edən iclasda Polşadan, İtaliyadan, Çexiyadan və b. ölkələrdən olan

məruzəçilər müxtəlif ideyalarla çıxış etdilər. Çıxışlardan sonra elmi diskussiyada fikir mübadiləsi oldu.

Konqresin yekun iclasında Dünya Fenomenologiya İnstitutunun "Springer" nəşriyyatında çap olunan illik məcmuəsi "Analecta Husserliana"nın yeni rəhbərliyi müəyyənləşdi. Azərbaycandan iki nəfər – AMEA-nın müxbir üzvü, prof. Səlahəddin Xəlilov və mən məcmuənin Redaksiya Şurasına üzv seçildik. Bununla da Konqres öz işini yekunlaşdırdı.

Onu da əlavə edim ki, Konqresin materialları təqribən 1 il ərzində hazırlanaraq "Analecta Husserliana"da nəşr olunur.

İmza: [signature] f.ü.e.d. Bünyadzadə Könül

13.10.14.